UOT 94

GÜLNARƏ SƏDRƏDDİNOVA
Bakı Dövlət Universitetinin
Azərbaycan tarixi (humanitar fənlər üzrə) kafedrasının müəllimi,
Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının doktorantı
ayxan.sadraddinov@mail.ru

1821-1830-CU İLLƏRDƏ OSMANLI İMPERİYASINA QARŞI BAŞ VERMİŞ YUNAN ÜSYANI ƏRƏFƏSİNDƏ FƏNƏR YUNAN PATRİARXLIĞININ FƏALİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/53-58

Osmanlı dövləti tərəfindən Balkanların fəthindən sonra burada yerləşən kilsələr Fənər Yunan Patriarxlığına tabe edilmişdi. Osmanlı torpaqlarına məxsus digər kilsələrin də Patriarxlığa tabe olması, yepiskop vəzifələrinə əsasən yunanların təyin olunması patriarxın siyasi gücünü də artırırdı. Yunanlar 1821-ci ildə Osmanlı imperiyasına qarşı üsyana başlmazdan əvvəl başda Rusiya olmaqla, Avropa dövlətlərinin, patriarx V Qriqori və ona tabe olan mitropolitlərin [xristian kilsələrində patriarxdan sonra ali ruhani rütbə] dəstəyini qazana bildi. Nəticədə İstanbulda yerləşən Yunan Pravoslav Patriarxlığı Avropa ictimaiyyətinin dini hisslərindən istifadə edərək müsəlman - xristian düşmənçiliyini ön plana çəkəcək, yunan üsyanında əsas təşkilatçı qüvvə olacaqdı.

Açar sözlər: Osmanlı imperiyası, Fənər Yunan Patriarxlığı, patriarx V Qriqori, Yunan üsyanı.

Giriş. Osmanlı imperiyasının geniş torpaqları üzərində yaşayan müxtəlif xristian millətlərindən biri də yunanlar idi. XIX əsrdə Rusiya, Balkanlar, Misir və İtaliya sahilləri daxil olmaqla çox geniş ərazilərdə yaşayan yunanların çoxluq təşkil etdikləri yerlər Peloponnes, Teselya və Egey adaları idi [17, s.158]. 1820-ci ildə Peloponnesdə 150000 yunan, 40000 türk var idi [15, s.28]. İmperiyanın tərkibindəki azlıqları ədalətli idarə etmək və onları itaətdə saxlamaq hakimiyyət adamlarının əsas daxili siyasəti idi. Buna görə də Osmanlı hökmdarları müsəlman olmayan əhaliyə həm dini, həm də hüquqi baxımdan bir çox azadlıqlar verirdilər. Lakin mərkəzi hakimiyyətin zəifləməsindən və milli azlıqların onlara verilən bu üstünlüklərdən Osmanlı əleyhinə istifadə etmələri imperiyanın çöküşünü hazırlayan səbəblərdən biri oldu.

Yunanlar orta əsrlərdən bəri vahid bir xalq olmaqdan məhrum idilər. Onları birləşdirən xüsusiyyətlər Provaslav kilsəsi və ortaq dilləri idi [17, s.158]. Fatih Sultan Mehmet Konstantinopolun mühasirəsindən əvvəl, 1452-ci il dekabrın 12-də İmperator XI Konstantin Palaioqolosun təşəbbüsü ilə Ayasofyada "Roma üsulu ilə keçirilən" mərasimdə Konstantinopol kilsəsinin Romaya birləşdiyini elan etdi. Bu hadisə əhali və ruhanilər arasında böyük narazılıqla qarşılandı. İstanbulun fəthindən sonra bizanslıların buradan köçməyə başlaması, patriarxın İtaliyaya qaçması ilə yunanların dini liderdən məhrum qalması, yunanları itaətdə saxlamaq zərurəti yeni patriarxın yunanlardan təyin olunması ilə nəticələndi [11, s.157-159].

Sultan II Mehmet yeni patriarx Gennadios Skolariosa dini və hüquqi muxtariyyət verməsi ilə imperiyada "millət sistemi"nin əsası qoyuldu. "Millət sistemi" Osmanlıda yaşayan digər xristian millətlərin vahid şəkildə bir Patriarxlığa tabe olması demək idi. Beləliklə, Osmanlı dövlətinin milli, hüquqi, siyasi və idarəçilik quruluşu "millət sistemi" adlanan ümumi siyasətə uyğun formalaşdırılmışdı. Bunlar içərisində xristian provaslav yunan əhalisi din sahəsində, ticarətdə və idarəçilikdə daha üstün mövqelərə sahib olub, rahat sosial yaşayışa malik idilər [20, s.223]. Millət sistemində "Rum milləti"nə aid olan yunanlar öz məktəblərini, kilsələrini və dini məhkəmələrini idarə etmək hüququna malik idilər. Bunu "millət sistemi" çərçivəsində avtonomiya adlandırmaq olar.

Bizans süqut etsə də Fənər Yunan Patriarxlığı onun yerinə keçmiş, hətta daha da güclənmişdi [19, s.106]. Bizans imperiyasının varlığında əldə etdiyi siyasi və hüquqi gücündən daha çoxunu əldə etmişdi. Demək olar ki, heç bir provaslav xristian Patriarxlığın razılığı olmadan Babıaliyə yaxınlaşa bilməzdi [8, s.66]. Patriarxlıq həyata keçirdiyi yunanlaşdırma siyasətinə uyğun olaraq bütün Rumeli bəylərbəyliyindəki yepiskop vəzifələrinə yunan rahiblərini təyin etməyə başladı [17, s.100].

Balkanların fəth edilməsindən sonra Bolqarıstan, Serbiya, Qaradağ və Əflak - Boğdan kilsələri, həmçinin, Rus Provaslav Kilsəsi də İstanbul Patriarxlığına tabe edildi. Osmanlı imperiyası yeni torpaqlar fəth etdikcə bu torpaqlardakı pravoslavlar da Patriarxlığa bağlı olurdular. Bu yolla Babıali yunan əhalisinin idarəsini nəzarəti altında saxlaya bilirdi. Nəticədə, İstanbul Patriarxı provaslav xristianların sadəcə ruhani lideri deyil, eyni zamanda siyasi liderinə çevrilirdi [5, s.256].

Osmanlı dövlətinin xristian azlıqlara tətbiq etdiyi ümumi və dini idarəçilik sistemi, Peloponnes və digər torpaqlarda da eyni ilə həyata keçirildi. Provaslav keşişlərinin yunan xalqı üzərindəki hüquqları qüvvətləndi. Elə bu səbəbdən də Peloponnes üsyanında Yunan Provoslav kilsəsi çox fəal rol oynadı [5, s.255].

Osmanlı hakimiyyətinin daha güclü olduğu dövrlərdə müstəqillik uğrunda fəal təbliğat işləri ilə məşğul olmayan Yunan Provaslav Patriarxlığı yunan dili və mədəniyyətini qorumağa çalışırdı. XVIII əsrin ikinci yarısından etibarən isə öz fəaliyyətini genişləndirməyə başladı. Xristian din adamları onlara verilən imtiyazların qarşılığında Osmanlı dövləti ilə ortaq kimi görünsələr də, kilsədə müsəlmanların əleyhinə təbliğat xarakterli moizələr oxuyurdular. Onlar, İstanbulun yunanların əlinə keçəcəyinə və "Osmanlı xarabalığından bir Yunan imperatorluğunun qurulacağına" inanırdılar [4, s.9]. Patriarxlığın nümayəndələri xristianların daha üstün olduqlarını bildirir, "müsəlmanların xristian torpaqlarındakı günahkarlar" olduqlarını vurğulayırdılar [18, s.168].

Osmanlı dövlətinin getdikcə öz gücünü itirməsi ilə xristianlara verilən bu üstünlükər Babıalinin əleyhinə istifadə edildi. Burada Qərb dövlətlərinin dəstəyi və Qərbdəki gizli təşkilatlanmalar əsas təhrikedici qüvvə idi. Avropa, Osmanlı imperiyasına missionerlərin və səyyahların gözü ilə baxırdı. Missionerlər mütəmadi şəkildə türkləri hədəf altında saxlayır və onları bütün dünyaya" Xristianların qatilləri" kimi göstərməyə çalışırdılar [16, s.23]. Beləliklə, Babıaliyə dost kimi görünən patriarxın, avropalıların dəstəyi ilə türklərə vurduğu zərbə imperiyanın tənəzzülünü hazırlayan səbəblərdən biri oldu.

Üsyan qaldırmaq yolu ilə müstəqillik əldə etmək fikirlərini yunanlar arasında yayan gizli qüvvə Ruisya idi. Ruslar tərəfindən əhali arasına keşiş, səyyah və tacir geyimində xəfiyyələr göndərilirdi. Onlar, şimaldan gələcək "sarı irq" tərəfindən istiqlaliyyətin təmin ediləcəyini əhali arasında təbliğ edirdilər. Bu məqsədlə hətta "Ksantos Genos" adlı uydurma dastan yazılmışdı [3, s.56].

XIX əsrin əvvəllərində Fənər Patriarxlığı ilə Rusiyanın əməkdaşlığı daha da gücləndi. Bunun xarakterik xüsusiyyətlərindən biri türklərin mədəni strukturlarının dağıdılması, milli təsisatlarının məhv edilməsi idi.

Yunan Patriarxı Qriqoriosun çar I Aleksandra göndərdiyi məktubdakı tövsiyyələr bunlar idi: "Türkləri faktiki olaraq əzmək və yıxmaq mümkün deyildir. Çünki türklər çox səbrli və müqavimət göstərməyi bacaran insanlardır. Çox məğrurdurlar və izzət nəfs sahibidirlər... onların bütün məziyyətləri, hətta qəhrəmanlıq və şücaət göstərmək duyğuları ənənələrinə olan bağlılıqlarından, əxlaqlarının möhkəmliyindən irəli gəlir. Türklərdə, əvvələn itaət duyğusunu qırmaq, mənəvi əlaqələrini yox etmək, dini mətanətlərini zəiflətmək zəruridir. Bunun da ən qısa yolu onların milli ənənə və mənəviyyatlarına uyğun gəlməyən xarici fikirlərə və hərəkətlərə alışdırmaqdır... Mənəviyyatları sarsıldığı gün türkləri özlərindən çox qüvvətli, çoxsaylı və zahirən hakim qüvvələr önündə zəfərə aparan əsl qüvvələri sarsılacaq və maddi vasitələrin üstünlüyü ilə yıxmaq mümkün olacaqdır..." [13, s.41].

Patriarx Qriqoriosun rus çarına göndərdiyi tövsiyyələr kağız üzərində qalmadı, türk cəmiyyətinin strukturlarında tətbiq edildi. Bu işin həyata keçirilməsində baş rolu Fənər patriarxlığı və onun tabeliyindəki kilsələr, habelə yunan məktəbləri oynadılar.

İstanbuldakı Fənər Yunan Patriarxlığı keçmiş Bizans ənənə və xürafələrinin zəngin bir xəzinəsi idi. Patriarxlığın qapısının üstünə həkk olunan Bizans qartalı simvolu qorunur, patriarx Bizans imperatorlarının tacını geyinirdi. Yunan patriarxı, keşişləri, mitropolitləri və diyakosları (keşiş köməkçisi) kilsələrdəki ayinləri, məktəb və mədrəsələrdəki dərs və təlimləri ilə keçmiş Bizans ruhunu yaşatmağa çalışırdılar [3, s.64].

Osmanlı imperiyası tərəfindən diqqət yetirilməyən və heçbir müdaxilə görməyən bu tarixi ənənələr və dini hisslər XVIII əsrin sonlarında daha da şiddətləndi. Osmanlı idarəçiliyinin zəiflədiyi, Qərbdə qonşu xristian dövlətlərin qüvvətləndiyi və milli hisslərin daha çox yayıldığı bu dövrdə yunan ideyaları öz yeni formalaşma mərhələsinə girmiş oldu. Patriarxlıq din pərdəsi altında Yunanısta-

nın Osmanlı dövlətindən ayrılıb müstəqillik əldə etməsi, Anadoluda yerləşən torpaqlar üzərində "Böyük Yunanıstan" yaradılması istiqamətində intensiv fəaliyyətlərə başladı. Hətta müvəfəqiyyət əldə edə bilmək üçün bütün dünya xristianlarının Osmanlıya qarşı birləşmələrini təmin etməyə çalışdı.

Patriarxlıq türklərin əleyhinə hiyləgərcəsinə iki tərəfli siyasət yeridirdi. Bunlardan birincisi, özünü Avropa ictimaiyyətində müsəlmanların əlinə düşmüş məzlum kimi göstərməsi idi. İkincisi isə serb, alban, ulah və bolqar kimi yunan olmayan provaslav əhalini yunanlaşdıraraq, onlarda qədim Bizans imperiyasına bağlılıq yaratması idi [18, s.345].

Yunanların üsyan zamanı ən əsas dini amildən istifadə etmələri səbəbsiz deyildi. Balkanlardakı bütün provaslavlar Fənər Provaslav Patriarxlığına tabe idi. Zəngin bolqar, serb, provaslav albanlar və ulah tacirlər, şəhərlərdəki yüksək təbəqəyə mənsub xristiyan əhali arasında yunanlara kömək etmək istəyi çoxdan var idi [1, s.494].

Patriarxların imtiyaz və hüquqlarının getdikcə artmasına Osmanlı dövləti biganə yanaşır, hətta buna şərait də yaradırdı [5, s.256.] Bu qədər geniş hüquq və azadlıqlara sahib olan Patriarxlığın, dövlətə qarşı məsuliyyəti də böyük idi. Bunu xatırlatmağa çalışan sultan, seçilmiş patriarxı hüzuruna çağırır, daha sonra, patriarx, "sultana sadiq qalacağına və dövlətin qanunlarına riayət edəcəyinə" dair and içirdi. Lakin, Patriarxlıq Osmanlı imperiyasının zəifləmə dövründə məsuliyyət və andını unudaraq, siyasətlə məşğul olmağa başladı. Bu isə hakimiyyəti altında olduğu dövlətə xəyanət etməsi demək idi. Kilsə öz xəyanətkar addımlarını hətta tam sərbəstlik daxilində həyata keçirdirdi. Çünki Patriarxlıq və ona bağlı olan ibadətgahların aqibəti fərmanlarla müəyyən edilirdi. Onların toxunulmazlığı var idi. Müxtəlif zümrələrə aid olan yunanlar da Patriarxlığın rəhbərliyi altında müstəqil dini həyat və dini müəssisələrə sahib idilər. Onların müstəqil idarə etdikləri məhkəmələri, məhəlli idarə qurumları, vergi toplamaq üçün öz üsul və qayda-qanunları var idi [21, s.43].

Hökumət xristian əhalinin və şəriət liderlərinin dini işlərinə qarışmırdı. Qarışdığında isə şəriət adamları siyasətlə məşğul olmurdular. Siyasətlə məşğul olan dindarların cəzası isə bəzən ölümlə nəticələnirdi [3, s.56].

Fənər Yunan Patriarxlığının dövlət idarəçiliyindəki üstünlüyü yunan dilinin rəsmi dil kimi qorunub saxlanılmasında da özünü göstərirdi. Patriarxlıq sistemli şəkildə kilsə və keşişlər vasitəsi ilə Anadolu və Balkan bölgəsində xristiyanlaşdırma [xüsusilə provaslavlaşdırma] və yunanlaşdırma fəaliyyətlərini həyata keçirirdi. Bu istiqamətdə atılan addımlar Balkanlarda o həddə gəlib çatdı ki, XIX əsrin əvvəllərində hər yerdə yunan tacirlər, yunan rahiblər və yunan müəllimlərin sözü keçirdi [18, s.100].

Osmanlı imperatorluğunun bir çox bölgələrində yunan ideologiyasını yayan mərkəzlər yaradıldı. Kilsə bu məqsədlə savadlı keşişləri vəzifələndirdi. Qabiliyyətli yunan gənclərini Avropaya təhsil almağa göndərib, sonra onlardan yunan millətini maarifləndirmək üçün istifadə edirdi [10, s.61-62]. Onlar buradakı ədəbiyyat və mədəniyyəti dərindən öyrənir, fransız əsərlərini tərcümə edir, müstəqillik uğrunda birlik olmaq fikirləri ilə tanış olurdular. Kilsənin dəstəyi ilə həyata keçirilən bu düşünülmüş siyasət nəticəsində həm keşişlər, həm də Avropada təhsil alıb gələn müəllimlər "Böyük Yunanıstan" ideologiyasının başlıca təmsilcilərinə çevrildilər. Xristianların dini və əxlaqi təhsili kilisəyə həvalə olunmuşdu. Əvvəllər yunan dilinin və xristian dininin tədrisi üçün yalnız ibtidai təhsil fəaliyyət göstərirdisə, sonralar bu məqsədlə ali təhsil mərkəzləri də açıldı [9, s.169].

Yunan üsyanına dəstək vermək üçün patriarx 1821-ci ildə provaslav xristian əhalini siyahıya aldı. Yunan üsyanında ən önəmli rolu kilsə və əhalinin alt təbəqəsi olan ruhban sinfi oynadı [12, s.106].

XIX əsrin əvvəlində qeyri-müsəlman tacirlərdən ibarət olan "Avropa taciri" adlanan yunanlar bəzi cəhətlərdən türk və müsəlman tacirlərlə müqayisədə daha üstün mövqe sahibi ola bilirdilər. Avropa ölkələrinə gedən yunanlar əllərindəki bu imkanlardan istifadə edərək həm xristian dindaşlarının dəstəyini gücləndirir, həm də Fransa burjua inqilabının müstəqillik ideyaları ilə yaxından tanış olurdular. Avropadan Osmanlı torpaqlarına qayıdan həmin tacir qrupları ilə bərabər, təhsil almaq və ya başqa məqsədlərlə Avropa ölkələrinə gedən digər yunan əhali də öz imkanlarını Osmanlıdan ayrılmaq yolunda səfərbər edirdi. XIX əsrin əvvəllərində Napoleon ideyalarının davamçıları olan yunanlar tərəfindən Avropanın bir neçə şəhərində yaranan "Yunanpərəstlər Cəmiyyətlər", tərkibində xeyli sayda ingilislərin də olduğu "İncəsənət Tanrısının Dostları" Cəmiyyəti (1812-ci il), Parisdə "Yunan

dilində danışanlar oteli" adlı bir təşkilat (1814-cü il), həmçinin, Peloponnesdə yaradılan "Afina" adlı təşkilat Fransanın, "Foniks" adlı təşkilat isə Rusiyanın yardımı ilə müstəqillik əldə edəcəklərinə ümidli idilər [22, s.8].

Sosial-iqtisadi baxımdan digər Balkan millətlərindən geridə qalan albanlar içərisində həm katoliklər, həm də pravoslavlar var idi. Pravoslav albanlar Ohri Yepiskopluğunun ləğv edilməsindən sonra yunanların Fənər Yunan Patriarxlığının təsiri altına düşdülər. Hətta alban kilsələrində aparılan dini ayinlər və dünyəvi təhsil yunan dilində həyata keçirilirdi [2, s.89]. Nəticədə, 1821-ci ildə yunan üsyanı başladıqda Balkan millətləri içərinsə üsyana ən böyük dəstək albanlardan gəldi [7, s.39].

Nəticə. Beləliklə, Eyni coğrafi bölgələrdə əsrlər boyu yaşayan və iki ayrı cəmiyyət olan türk və yunan xalqı, bir neçə əsr eyni dövlətlərin komponentləri olaraq da tarixlərini birləşdirmişdi. Buna baxmayaraq bu bərabərliyin gətirdiyi yaxınlığa heç biri müvəffəq ola bilmədi. Osmanlı hökuməti təxminən 400 il hakimiyyəti altında yaşayan müxtəlif din və məzhəblərə qarşı anlayışlı və ədalətli münasibət göstərir, dini, mədəni, iqtisadi və sosial imtiyazlar versə də [6, s.191-290], böyük dövlətlər öz məqsədlərini həyata keçirmək üçün Osmanlıda yaşayan xristian millətlərdən istifadə edirdi. Yunanlar da bu istiqmətdə öz dəstəyini əsirgəmədilər. Bunun başlıca səbəbi isə din amili idi. Yunan üsyanı milli qarşıdurma adı altında başlasa da, xristianların müsəlmanlara qarşı birləşməsi ilə alovlandı. Yunanpərəst avropalılar Ayasofiyanı geri ala bilmək arzusu ilə üsyançıların yanında vuruşdular. Nəticədə ədaləti bərpa etmək adı altında üsyançıları dəstəkləyən separatçı xristian dövlətlər, Osmanlı imperiyasının süqutunu tezləşdirdilər.

ƏDƏBİYYAT

1. Koyuncu Aşkın. Yunanıstanda Bağımsız Devlet. Balkanlar El Kitabı. C:1. Tarih, O.Karatay-B.A. Gökdağ. Ankara: Karam/Vadi yayınları, 2006, s.488-514.
2. Jelavich Barbara. Russia and Greece during The Regency of King Othon.1832-1835. Selanik: Balkan Studies İnstitute, 1962, 155 p.
3. Eryılmaz Bilal. Osmanlı Devletinde Gayrimüslim Tebaanın Yönetimi. 2. Baskı, İstanbul, Risale Yay., 1996, 240 s.
4. Dakin Douglas. The Unification of Greece. (1770-1923). London: Ernest Bern Ltd., 1972, 344 p.
5. Armaoğlu Fahir. 19. Yuzyıl Siyasi Tarihi. İstanbul, Alkım yayınevi, 2006, 1152 s.
6. Schevill Ferdinand. History of the Balkan Peninsula From the Earliest Time. New York, 1966, 558p.
7. Finlay George. History of the Greek Revolution and of rhe Reign of King Otho. Londra, Zeno Pres, 1971, 390 p.
8. Demirhan Hasan. Büyük Güçlerin gölgesinde Yunan isyanı. 1.Baskı. İstanbul, İdil yayıncılık, 2016, 400 s.
9. Şahin Hasan. Küçük Kaynarcadan (1774) Paris Barışına (1856) Kadar Şark Meselesi Perspektifinde Osmanlı-Rus Münasebetlerine Genel Bir Bakış. Türkler, C. XII. Ed. Salim Koca vd. Ankara, Yeni Türkiye Yay., 2002, s.531-549.
10. Ortaylı İlber. Osmanlı İmparatorluğunda Millet Sistemi ve Hoşgörü. Türkler, C.X. Ankara, Yeni Türkiye yayınları, 2002, s.216-220.
11. Uzunçarşılı İsmail Hakkı. Osmanlı Tarihi. Ankara, Türk Tarih Kurumu yay., 1978. C:IV. B:I. 685 s.
12. Karpat Kemal H. Balkanlarda Osmanlı Mirası ve Ulusçuluk. Çev: Recep Boztemur. Ankara, İmge Yay., 2004, 411 s.
13. Fətəliyev Məmməd. Türkiyə, Yunanıstan və Böyük dövlətlər. Birinci dünya müharibəsi ərəfəsində və illərində. Bakı, Bakı universiteti nəşriyyatı, 2005, 359 s.
14. Glenny Misha. Balkanlar. 1804-1999: Milliyetçilik, savaş ve büyük güçler. Çev: M. Harmancı. İstanbul, Sabah Kitapları, 2001, 564 s.
15. Tursan Nureddin. Yunan Sorunu. Ankara, 1987, 398 s. (müəllif tərəfindən çap edilmişdir)
16. Osman Cilacı. Hıristiyanlık Propagandası Ve Misyonerlik Faaliyetleri. 6-cı Baskı, Ankara, Diyanet İşleri Başkanlığı Yay., 2005, s.23.

17. Uçarol Rıfat. Siyasi Tarih. 1789-2014. 10-cu Baskı. Ankara, 2015, 1492 s.
18. Şahin M. Süreyya. Fener Rum Ortodoks Patrikhanesi. C: 12. Ankara, TDV İslam Ansiklopedisi, 1995, s.342-348.
19. Vamık D. Volkan- Norman Itzkowıtz. Türkler Ve Yunanlılar: Çatışan Komşular. İstanbul, Bağlam Yay., 2002, 294 s.
20. Yavuz Ercan, Osmanlı Yönetiminde Gayrimüslimler (Kuruluştan Tanzimata Kadar Sosyal, Ekonomik Ve Hukuki Durumları). Ankara, Turhan Kitabevi, 2001, s.291-298.
21. Türk-Yunan İlişkileri ve Megalo İdea. Hazırlayan: Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı. No: 594. Gençlik ve Halk Kitapları Dizisi: 4. Ankara, Türk Kültür ve Turizm Bakanlığı yayınları, 1985, 64 s.
22. Serter Zeki. Yunan Emperyalizmi ve Türk Ulusu. (1821-1976) Lefkoşe, Kıbrıs Türktür Derneği yay., 1976, 76 s.

ГУЛЬНАРА САДРАДДИНОВА
Докторант кафедры новейшей и современной истории европейских и американских стран Бакинского государственного университета, преподаватель кафедры истории Азербайджана (гуманитарные науки)

РЕЛИГИОЗНЫЕ ПРИВИЛЕГИИ ГРЕКОВ НАКАНУНЕ ГРЕЧЕСКОГО ВОССТАНИЯ ПРОТИВ ОСМАНСКОЙ ИМПЕРИИ В НАЧАЛЕ XIX ВЕКА

После завоевания Балкан Османской империей находившиеся там церкви были подчинены Константинопольскому Вселенскому патриархату. Подчинение других церквей, располагавшихся на османской территории, а также назначение греков на епископские должности способствовали усилению политического влияния патриархата. Греки, заручившись поддержкой европейских держав - прежде всего России - и митрополитов, находящихся внутри Османской империи (высший духовный сан в христианской церкви после патриарха), смогли укрепить свои позиции. В результате Православный Греческий Патриархат, находившийся в Константинополе, использовал религиозные чувства греков и европейской общественности, выдвинул на первый план антагонизм между мусульманами и христианами и стал одной из ключевых организующих сил греческого восстания 1821–1830 годов.

Ключевые слова: Османская империя, Греческое восстание, Фанарский Греческий Патриархат, Патриарх Грегори V.

GULNARA SADRADDINOVA
PhD student of the Department of Modern and Contemporary History of European and American Countries at Baku State University, lecturer at the Department of Azerbaijani History [Humanities]

RELIGIOUS PRIVILEGES OF THE GREEKS ON THE EVE OF THE GREEK UPRISING AGAINST THE OTTOMAN EMPIRE IN THE EARLY 19TH CENTURY

After the conquest of the Balkans by the Ottoman Empire, the churches located in the region were subordinated to the Ecumenical Patriarchate of Constantinople. The inclusion of other churches within Ottoman territories under the authority of the Patriarchate, along with the appointment of Greeks to episcopal positions, significantly enhanced its political influence. The Greeks, enjoying the support of European powers particularly Russia as well as the metropolitans within the Ottoman Empire (high-ranking clergy in Christian churches subordinate only to the patriarch), were able to

consolidate their position. As a result, the Orthodox Greek Patriarchate in Istanbul, by exploiting the religious sentiments of both the Greeks and the European public, brought Muslim-Christian antagonism to the forefront and became a principal organizing force behind the Greek uprising of 1821–1830.

Keywords: Ottoman Empire, Greek Revolution, Phanar Greek Patriarchate, Patriarch Grigorios V.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 may 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Şəbnəm Cəfərova, t.ü.f.d. Məmmədağa Baxışov.